***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2019-cu il 24 iyul tarixli 312/4 nömrəli***
***qərarı ilə təsdiq edilmişdir.***

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**vəzifəli şəxslərinin xüsusi hesabatı barədə**
**Q A Y D A**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarında, habelə Beynəlxalq Audit Standartlarının tələblərinə zidd olan hallar üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin öz qulluq mövqeyindən, təmsil etdiyi qurumun statusundan, vəzifə səlahiyyətlərindən sui-istifadə nəticəsində audit bazarında sağlam rəqabətə birbaşa və dolayı yolla təsir etmələrinin və dempinq hallarının qarşısının alınması məqsədi daşıyır.

1.2. Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin digər hüquqi və fiziki şəxslər qarşısında mülkiyyət və qeyri-mülkiyyət xarakterli öhdəlikləri, təsərrüfat əqdlərinin qarşılıqlı surətdə asılı olan şəxslər arasında həyata keçirməsi, şəxsin, qrupun, təşkilatın və ya digər qurumun maraqları naminə əlavə məlumatların emal edilməsi, ötürülməsi, (məcburi audit subyektlərinin) yönəldilməsi, məsuliyyətin aradan qaldırılması məqsədilə təhrif olunmuş hesabatların qəbul edilməsi, qanunvericiliyə və normativ hüquqi sənədlərə zidd olan halların gizlədilməsi səbəbindən, auditor bazarında haqsız rəqabətə, diskriminasiyaya, dempinq qaydalarının pozulmasına səbəb olan hərəkət və hərəkətsizlikləri, habelə bu qaydanın məqsədləri üçün operativ və dövri qaydada təqdim olunmalı məlumatların verilməməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

1.3. Auditorlar Palatasının vəzifəli şəxsləri bu qaydalardan irəli gələn əsaslarla Palata rəhbərliyinə hesabat təqdim edirlər.

**2. Auditorlar Palatasının vəzifəli şəxsləri**

2.1. Auditorlar Palatasının vəzifəli şəxsləri Auditorlar Palatasında müəyyən vəzifə tutan şəxslərdir.

2.1. Auditorlar Palatasının vəzifəli şəxsləri Azərbaycan Respublikası Auditorlar Palatasının sədri tərəfindən müəyyən edilmiş qaydada vəzifəyə təyin olunur və vəzifədən azad edilir.

2.3. Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxsləri elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, heç bir sahibkarlıq və bu qayda ilə müəyyən edilmiş ödənişli fəaliyyət növləri ilə məşğul ola bilməzlər.

2.4. Bu qaydanın məqsədləri üçün digər vəzifəli şəxslərin siyahısı Palata Şurasının müvafiq qərarı ilə təsdiqlənir *(xidmət müqaviləsi, başqa əqdlər və.s əsasında işləyən əməkdaşlar).*

**3. Auditorlar Palatasının vəzifəli şəxslərinin hesabatı**

3.1. Auditorlar Palatasının vəzifəli şəxsləri Auditorlar Palatasının Əsasnaməsinə və bu Qaydaya uyğun olaraq Palatanın rəhbərliyinə operativ və dövrü qaydada hesabat (məlumat-açıqlama) verirlər.

3.2. Operativ məlumat-açıqlama qaydasında hesabat vəzifəli şəxslər tərəfindən on iş günü ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyinə təqdim edilir. Operativ qaydada məlumat-açıqlama o zaman təqdim (bəyan) edilir ki, bu qaydanın 4-cü bəndində nəzərdə tutulan hallar (əlmətlər) baş vermiş (qeydə alınmış) olsun.

3.3. Dövri məlumat-açıqlama qaydası təqvim ilinin yarımillik (altı aylıq) dövrünün yekunlarına dair Palata rəhbərliyinə müvafiq qaydada təqdim edilir. Operativ qaydada məlumat-açıqlamanın bəyan edilməsi dövri məlumat-açıqlamanın təqdim (bəyan) edilməsini istisna etmir.

3.4. Məlumat-açıqlama (bəyanat) barədə hesabatın üzrlü səbəb olmadan verilməməsi və ya gecikdirilməsi vəzifəli şəxs barədə intizam tədbirinin görülməsinə səbəb ola bilər.

3.5. Belə məlumat-açıqlamanın verilməsi (doldurulması) qaydası və forması Palata Şurası tərəfindən müvafiq qaydada təsdiqlənir və aşağıdakı məlumatları özündə əks etdirir:

- Vəzifəli şəxsin adı, atasının adı və soyadı;
- Tutduğu vəzifə (struktur vahidinin tam şəkildə adı);
- Təsisçisi və ya təsisçilərindən biri olduğu hüquqi şəxs və ya şəxslərin (auditor təşkilatı) adı, (adları);
- Hesabat dövründə təsisçi və payçı hüququnun ləğv edilməsinin (son) tarixi;
- Təsərrüfat əqdləri qarşılıqlı surətdə asılı olan digər hüquqi şəxslər;
- Hüquqi şəxsin (şəxslərin) vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
- Yaxın qohumluq əlaqəsi olan hüquqi şəxsin təsisçisi və ya təsisçilərinin adı, soyadı;
- Qohumluq əlaqəsi olan hüquqi şəxsin vəzifəli şəxsi (şəxsləri) və vəzifəsi;
- Qohumluq əlaqəsinin səviyyəsi;
- Əmlak və qeyri-əmlak öhdəlikləri və onun səviyyəsi (ortaqlıq, borc, qeyri-maddi yüklülük və ya mənəvi borc);
- Auditorlar Palatasının müvafiq icazəsi əsasında Azərbaycan Respublikası ərazisində sərbəst auditor kimi fəaliyyət göstərən fiziki şəxs və şəxslərin adı, soyadı və atasının adı;
- Sərbəst auditorun bu qaydanın məqsədləri üçün hesabat dövrü daxilində qeydiyyata alındığı tarix;
- Sərbəst auditorun qohumluq əlaqəsinin səviyyəsi;
- Təsərrüfat əqdləri qarşılıqlı surətdə olan sərbəst auditorlarla əqdin səviyyəsi (maddi nəticələr üzrə bölgünün səviyyəsi);
- Digər zəruri məlumatlar.

3.6. Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxsləri tərəfindən məlumat-açıqlama barədə hesabat şəxsən bəyan edilir və öz imzaları ilə təsdiqlənir.

**4. Qarşılıqlı asılı şəxslər**

4.1. Bu Qaydanın məqsədləri üçün qarşılıqlı surətdə asılı olan şəxslər-aralarındakı münasibətlər fəaliyyətlərinin iqtisadi nəticələrinə və ya onların təmsil etdiyi şəxslərin fəaliyyətinə bilavasitə təsir göstərə bilən aşağıdakı fiziki şəxslər və (və ya) hüquqi şəxslərdir:

- bir şəxs digər şəxsin əmlakında (nizamnamə kapitalında) bilavasitə və ya dolayısı ilə iştirak edirsə və onun iştirak payı və ya səs hüququ varsa;
- bir şəxs özünün xidməti və ya maddi vəziyyətinə görə digər şəxsə tabedir və ya bir şəxs digər şəxsin bilavasitə və ya dolayısı ilə nəzarətindədir;
- şəxslər üçüncü şəxsin birbaşa və ya dolayısı ilə nəzarətindədirlər;
- şəxslər üçüncü şəxsə birbaşa və ya dolayısı ilə birgə nəzarət edirlər;
- vəzifəli şəxslərin ailə üzvləri və qohumları;
- maddi və qeyri-maddi öhdəliklərlə digər şəxs və ya şəxslər qarşısında yüklənmişdir.

4.2. Bu Qaydanın məqsədləri üçün bir şəxs digər şəxsə o halda nəzarət etmiş hesab olunur ki, həmin şəxs digər şəxsin fəaliyyətini məhdudlaşdırmaq, maddi vəziyyətinə bilavasitə və dolayısı ilə təsir göstərmək imkanına malikdir.

**5. Haqsız rəqabət və mənafelərin toqquşması**

5.1. Auditorlar Palatasının vəzifəli şəxsləri tərəfindən aşağıdakı hallarda öz xidməti vəzifələrini auditin subyektlərinə, auditor təşkilatlarına və sərbəst auditorlara münasibətdə həyata keçirməsi yolverilməzdir:

5.2. Səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında həyata keçirilməli olan audit yoxlamasının təyinatını bu qaydanın 3-cü maddəsində nəzərdə tutulmuş şəxslərə yönəldilməsi.

5.3. Əlavə məlumatların qulluq mövqeyindən istifadə etməklə emal edilməsi, ötürülməsi və audit subyektlərinin bu qaydada nəzərdə tutulan məqsədlər üçün yönəldilməsi.

5.4. Dempinq siyasəti haqqında qəbul edilmiş normativ sənədlərin tələblərinə əməl edilməməsi.

5.5. Nəzarət və tənzimləyici tədbirlərin vaxtında və lazımınca yerinə yetirilməməsi.

5.6. Bu Qaydanın 3-cü maddəsində nəzərdə tutulmuş şəxslərin hesabatlarının təhrif olunmuş şəkildə qəbul edilməsi.

5.7. Diskriminasiya xarakterli nəticələrə səbəb olan digər hallar.

**Qeyd:** Bu Qayda Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2019-cu il 12 fevral tarixli 1/11 saylı Sərəncamının 4-cü bəndinə əsasən hazırlanmışdır.